**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclasının**

**P R O T O K O L U № 1**

**Naxçıvan şəhəri** **26 aprel 2024-cü il**

26 aprel 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin üzvü Sevda Quluyeva

**İclasda iştirak etdilər:**

| | | |
|---|---|---|
| 1. | Həsənova Esmira Həsən qızı | -Komitənin sədr müavini |
| 2. | Babayev Tofiq Süleyman oğlu | -Komitənin üzvü |
| 3. | Bağırsoylu Hüseyn Qədirulla oğlu | -Komitənin üzvü |
| 4. | İsmayılov Ehtibar Şəhrud oğlu | -Komitənin üzvü |
| 5. | Qasımov Arif Mikayıl oğlu | -Komitənin üzvü |
| 6. | Məmmədov Nazim Məmməd oğlu | -Komitənin üzvü |
| 7. | Vəliyev Musa Məmməd oğlu | -Komitənin üzvü |
| 8. | Zeynalov Azər Yadulla oğlu | -Komitənin üzvü |

**Dəvət olunanlar:**

1. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri

2. Nihad Möhbalıyev - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri

3. Sahir Rüstəmov - Nazirlər Kabineti Aparatının rəhbəri

4. Xəyalə Dadaşova - Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən

5. Mübariz Bayramov - Nazirlər Kabineti Aparatının Aqrar məsələlər və ekologiya şöbəsinin müdiri

6. İsmayıl Bağırov - Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdir əvəzi

7. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini

8. Elşən Yolçuyev - Ali Məclis Aparatının Protokol sektorunun müdiri

9. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri

10. Firudin Məmmədov - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin Büdcə sektorunun müdiri

11. Oruc Babayev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi

12. Səttar Nəsirov – "Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin Su ehtiyatlarından istifadə şöbəsinin müdiri

**İclasın gündəliyi:**

**"Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatı" barədə.**

İclası Komitənin sədri İsa İsayev açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin 10 üzvü, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Nazirlər Kabineti Aparatının və aid dövlət orqanlarının nümayəndələri iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsa İsayev iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir. Daxili Nizamnamənin 23.2-ci maddəsinə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin İqtisadi siyasət komitəsinə rəy verilməsi üçün təqdim edilmişdir.

İsa İsayev Nazirlər Kabinetinin 2023-cü il üzrə hesabatının Ali Məclisin aid şöbəsi tərəfindən bütün deputatlara göndərildiyini və deputatların məlumatlı olduğunu bildirdi. Hesabat barədə məlumat verməsi üçün söz Nazirlər Kabineti Aparatının Aqrar məsələlər və ekologiya şöbəsinin müdiri Mübariz Bayramova verildi.

**Çıxışda:** Mübariz Bayramov bildirdi ki, ötən il ölkəmiz və muxtar respublikamız üçün uğurlu olmuş, mühüm hadisələrlə yadda qalmışdır. Ötən dövrdə ölkəmizdə "Heydər Əliyev İli" elan edilmiş və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər 2023-cü ildə də uğurla davam etdirilmiş, inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyulmuşdur.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması müstəqil Azərbaycanın siyasi və iqtisadi qüdrətinin daha bir göstəricisi olduğunu qeyd etdi.

Bildirdi ki, mövcud imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixrac potensialının artırılması, dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas hədəflərdəndir.

Mübariz Bayramov Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabat barədə məlumat verərək bildirdi ki, hesabatda “Makroiqtisadiyyat”, “Maliyyə və vergi”, “Bank sektoru”, “Sənaye sektoru və sahibkarlığın inkişafı” başlıqları üzrə iqtisadi sahələr üzrə ətraflı məlumat verilmişdir.

**Çıxışda:** Komitə üzvü Arif Qasımov Sədərək rayonunda içməli su və kanalizasiya xətlərinin çəkilməsi prosesinə uzun illərdir başlanılmasına baxmayaraq işlərin yekunlaşdırılmadığını, bu məsələnin rayon sakinlərini narahat etdiyini qeyd edərək həmin layihənin muxtar respublika ilə bağlı qəbul edilmiş müvafiq Dövlət Proqramında nəzərdə tutulub-tutulmadığı ilə bağlı hökumət nümayəndəsinə sual ünvanladı.

**Çıxışda:** Mübariz Bayramov deputatın sualına cavab olaraq bildirdi ki, Sədərək rayonunda içməli su və kanalizasiya sistemlərinin qurulmasına 2011-ci ildən başlanılıb, sonrakı illərdə layihənin icrası başqa şirkətlərə verilib. O layihənin muxtar respublika ilə bağlı müvafiq Dövlət Proqramında əks olunmadığını, lakin Naxçıvan Muxtar Respublikasının İnvestisiya Proqramında nəzərdə tutulduğunu qeyd etdi. Hazırda icrası yarımçıq qalan layihənin yenidən qiymətləndirilməsinin aparılacağını və bununla bağlı tender elan ediləcəyini bildirdi. Həmçinin qeyd etdi ki, Dəmirçi kəndində içməli su xətlərinin çəkilişi muxtar respublikanın ehtiyat fondundan vəsait ayrıldıqdan sonra “Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti tərəfindən başa çatdırılıb.

**Çıxışda:** Komitə üzvü Sevda Quluyeva hesabatda mündəricatın əks olunmadığını, hesabatın lazımi səviyyədə hazırlanmadığını qeyd edərək irad bildirdi.

**Çıxışda:** Komitə üzvü Hüseyn Bağırsoylu hesabatın riyazi statistik model əsasında hazırlandığını, lakin hesabatda əks olunan göstəricilərin statistik müqayisələrinin aparılmadığını, məşğulluqla bağlı statistik göstəricilərin, Dövlət Baytarlıq Xidmətinin ləğvi ilə əlaqədar yekun məlumatların hesabatda öz əksini tapmadığını qeyd etdi. O xüsusilə məşğulluqla bağlı göstəricilərin növbəti illərdə hesabatda qeyd olunmasını xahiş etdi.

**Çıxışda:** Şöbə müdiri Nihad Möhbalıyev Nazirlər Kabinetinin hesabatının ilk dəfə olaraq Ali Məclisin komitələrində müzakirəsini yüksək qiymətləndirdi, bunu muxtar respublikada aparılan uğurlu sosial-iqtisadi islahatların, eyni zamanda qurumlar arasında idarəetmənin təkmilləşdirilməsinin nəticəsi kimi dəyərləndirdi. Həmçinin hesabatda büdcə xərcləri ilə bağlı struktur bölgünün, sənaye sahəsinin ötən il üzrə müqayisəsinin verilmədiyini, dövlət əmlakının

idarə edilməsi və özəlləşdirilməsi, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, ünvan reyestrinin ümumiyyətlə qeyd olunmadığını və digər məsələlərin nəzərə alınmasını diqqətə çatdırdı.

**Çıxışda:** Komitə sədri İsa İsayev Azərbaycan-Türkiyə İnvestisiya Forumu çərçivəsində aid dövlət qurumlarının iştirakı ilə keçirilmiş görüşdə müzakirə olunan məsələlərin həlli istiqamətində hansı işlərin görüldüyünü, muxtar respublikada sahibkarların ixracyönümlü məhsullarını ixrac edə bilmək imkanlarının hansı səviyyədə olması ilə bağlı sual verdi.

Əlavə olaraq muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, baramaçılığın və ipəkçiliyin inkişafı, yeni tut bağlarının salınması və ipək istehsalı müəssisəsinin yaradılması barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə regionlarda görüşlərin keçirilməsinin hesabatda qeyd olunduğunu bildirdi. O sahibkarlıq fəaliyyəti məqsədilə regionlardan aidiyyəti qurumlara hər hansı bir müraciətin olması, dövlətin bu istiqamətdə sahibkarlıq subyektlərinə dəstəyi, eləcə də digər mövzularda öz fikirlərini, təklif və suallarını səsləndirdi.

**Deputatların səsləndirdikləri fikirlərə, irad, təklif və suallara Nazirlər Kabineti Aparatının Aqrar məsələlər və ekologiya şöbəsinin müdiri Mübariz Bayramov, İqtisadiyyat şöbəsinin əməkdaşı İsmayıl Bağırov və Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova münasibət bildirərək aydınlıq gətirdilər, irad və təkliflərin qeydiyyatı aparıldı.**

**Çıxışda:** Komitə sədri İsa İsayev bildirdi ki, iclasda Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı ilə bağlı aparılan müzakirələr faydalı oldu, təklif və iradlar səsləndirildi.

Komitə sədri makroiqtisadi göstəricilərin əvvəlki illərlə müqayisəli təhlilinin, icrasına başlanılan layihələrin icra vəziyyətinin, muxtar respublika ilə bağlı müvafiq Dövlət Proqramının icrası istiqamətində görülmüş və görüləcək işlərin hesabatda əks olunmasının önəmini qeyd etdi. Bununla da, hesabatın daha informativ olacağını diqqətə çatdırdı.

Bildirdi ki, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən Ali Məclisin İqtisadi siyasət komitəsi müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir.

Sonda İsa İsayev altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin rəyini oxudu və "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə edildi.

**İclasa sədrlik edən:** **İ.İsayev**

**Katib:** **S.Quluyeva**